AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

10 İYUL 2024-cü il ÇƏRŞƏNBƏ № 142 (7900) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLİKA-NEWS.AZ



# Ölkəmiz ŞƏT-lə uğurlu tərəfdaşlığa önəm verir

*Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) 1996-cı ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistan tərəfindən Şanxay Beşliyi adı ilə yaradılıb. 2001-ci ildə Özbəkistanın daxil olmasından sonra Şanxay Əməkdaşlıq Təşkilatı adlandırılıb. Hindistan və Pakistan isə 2017-ci ildə təşkilata tam üzvlüyə qəbul ediliblər. ŞƏT-in yaradılmasında Çin və Rusiyanın Asiyada təhlükəsizliklə bağlı əməkdaşlıq etmək istəyi əsas rol oynayıb.*

Təşkilatda Dövlət Başçıları və Hökumət Başçıları Şurası, katiblik, Regional Terrorla Mübarizə, Xarici İşlər Nazirləri Şurası fəaliyyət göstərir. ŞƏT katibliyi Çinin paytaxtı Pekində, "Regional Terrorla Mübarizə Qurumu" isə Özbəkistanın paytaxtı Daşkənddə yerləşir.

ŞƏT-in üzvləri ilə yanaşı, müşahidəçiləri - İran, Monqolustan, Əfqanıstan, dialoq tərəfdaşları Şri-Lanka, Türkiyə, Kamboca, Azərbaycan, Ermənistan, Nepal, Misir və Qətərdir.

Azərbaycanın xarici siyasət prioritetlərindən biri də ayrı-ayrı dövlətlər və nüfuzlu beynəlxalq təsisatlarla bərabərhüquqlu əməkdaşlığın və münasibətlərin inkişaf etdirilməsidir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycanı Avrasiyanın nəqliyyat-logistika qovşağına çevirib. Prezident İlham Əliyevin yürütdüyü siyasətin və diplomatiyanın əsas istiqamətlərindən biri də münasibətlərin bərabərhüquqlu əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulmasıdır. Bu müdrik siyasət BMT və onun müxtəlif aparıcı qurumları, dünyanın ikinci ən böyük təsisatı olan Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatının Azərbaycanla sıx əlaqələr qurmağa üstünlük verməsinə gətirib çıxarıb.

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Azərbaycan bu il ikinci dəfə idi ki, ŞƏT-in Zirvə toplantısına dəvət olundu. Məhz bu Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisinin bariz nümunəsidir. Üzv olmadığımız təşkilatların Azərbaycan və onun Lideri ilə əməkdaşlıq etmək niyyətləri, keçirdikləri konfrans və sammitlərə dəvət göndərmələri ölkə başçımızın artan nüfuzunun və ona olan etimadın göstəricisidir. Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında münasibətlərin inkişafı və gücləndirilməsində dövlətimizlə yanaşı, Heydər Əliyev Fondunun əvəzolunmaz rolunu da qeyd etmək vacibdir. Heydər Əliyev Fondunun bu münasibətlərə verdiyi ən önəmli töhfələr 2018-ci ildə ŞƏT-in Pekindəki mənzil-qərargahında Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi və 2021-ci ildə eyni məkanda Azərbaycan şairi Nizami Gəncəvinin büstünün qoyulmasıdır.



# Ölkəmiz ŞƏT-lə uğurlu tərəfdaşlığa önəm verir




Onu da qeyd edək ki, iyulun 3-də Astanada keçirilən ŞƏT-in Zirvə toplantısında Belarus da təşkilata üzv qəbul olunub. Toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında keçirilən üçtərəfli görüş də dünya siyasətinin diqqət mərkəzində olub. Tədbirdə üçtərəfli formatda Zirvə görüşünün ilk dəfə keçirildiyi vurğulanıb, tarixi əhəmiyyəti qeyd olunub və bu görüşlərin bundan sonra mütəmadi xarakter daşıyacağına əminlik ifadə edilib. Ölkələrimiz arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Orta Dəhlizdə Pakistanın da iştirakı qeyd edilib və bunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin təşviqinə töhfə verəcəyi bildirilib. Qeyd edək ki, 2021-ci il iyulun 27-də Milli Məclisdə ilk dəfə olaraq Azərbaycan, Pakistan və Türkiyənin parlament sədrləri arasında üçtərəfli görüş keçirilib. Görüşün sonunda Bakı Bəyannaməsi imzalanıb. Bu üçtərəfli parlamentlərarası əməkdaşlıq formatı ölkələrimiz arasında mövcud olan qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etməsinə, eləcə də xalqlarımızın ortaq maraqlarına xidmət edəcək. Xüsusilə vurğulamaq lazımdır ki, bu üçtərəfli əməkdaşlıq platformaları beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutaraq, yalnız sülh, təhlükəsizlik, sabitlik və tərəqqini təşviq edir.

Ölkəmizin bir sıra nüfuzlu beynəlxalq qurumların üzvü olaraq BMT-dən sonra ən böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etməsi, COP29 kimi nüfuzlu tədbirin ev sahibliyinə hazırlaşması Şanxay Əməkdaşlıq Təşkilatı ilə uğurlu tərəfdaş ola biləcəyini söyləməyə əsas verir.

Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında daha çox tranzit, nəqliyyat-logistika məsələlərinə toxunulub. Məlumdur ki, Azərbaycanın tranzit, nəqliyyat-logistika sahəsində çox böyük potensialı var. Son 20 il ərzində 19 min kilometrdən çox avtomobil yolu, 1400 kilometrdən çox dəmir-yolu xətti çəkilib. Hava donanmasında 18 təyyarə, 8 liman mövcuddur və bu limanların sayının 9-a çatdırılması nəzərdə tutulur.

Azərbaycanla ŞƏT-i birləşdirəcək əsas fəaliyyət istiqamətlərindən biri məhz nəqliyyat-logistika sahəsidir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükdaşıma qabiliyyətinin artırılması, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri sayəsində Azərbaycanın Çin-Avropa-Çin tranzit xəttinin vacib körpüsünə çevrilməsi, həmçinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi - Orta Dəhlizin imkanları ölkənin ŞƏT-in həmtəsisçisi olan Çinlə ticarət əlaqələrinin möhkəm, davamlı olmasına zəmin yaradır. Ümumiyyətlə, yerləşdiyi coğrafi mövqe ölkəmizə Asiya-Avropa yükdaşıma prosesində mühüm rol oynamağa imkan verir.

**Bayram SALMANOV,**
**"Respublika".**